BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
*№4 Sosial-siyasi elmlər seriyası 2007*

# G.V.HEGELİN «TARİX FƏLSƏFƏSİ»

**B.X.ƏLİZADƏ**
*Bakı Dövlət Universiteti*

Məlumdur ki, sosial fəlsəfənin tədqiq etdiyi problemlərdən biri də cəmiyyətin inkişafının tarixi mərhələləridir. Fəlsəfə tarixində tarix fəlsəfəsi problemlərinə bir çox filosoflar öz münasibətlərini bildirmiş, təhlil aparmışlar. Tarix fəlsəfəsi dünya xalqlarının fəaliyyət prinsiplərini və qanunauyğunluqlarını tarixi aspektdə tədqiq edir, tarixin məqsədi və mənasını izah etməyə çalışır. Fəlsəfə tarixində tarixi prosesin izahında müxtəlif baxışlar, konsepsiyalar mövcud olmuşdur. Cəmiyyət inkişaf etdikcə bu nəzəriyyələr də dəyişmiş, inkişaf etmiş, dərinləşmiş və təkmilləşmişdir. Qeyd etmək yerinə düşərdi ki, tarix fəlsəfəsi zaman keçdikcə özünə daha çox tərəfdar tapır və ictimai elmlər arasında öz layiqli statusunu əldə edir. Bu məqalə tarixi proses haqqında müəllifin yazdığı məqalələrin davamıdır və məqsəd tarixi proses, onun müxtəlif aspektləri haqqında daha geniş məlumat vermək, bu mövzunun öyrənilməsində olan boşluğu doldurmaqdır.

Tarix fəlsəfəsi ilə məşğul olan filosofların əksəriyyəti tərəfindən qəbul edilən konsepsiyaya görə bəşər tarixi vahid qanunauyğun prosesdir. Burada baş verən hadisə və proseslər qarşılıqlı əlaqədə olub, qarşılıqlı şəkildə də şərtlənirlər. Bu tarixə monist baxış adlanır və bir çox filosoflar bu mövqeyə öz münasibətlərini bildirmişlər. Həmin filosoflardan biri böyük alman filosofu G.V.Hegeldir. Hegelin böyük xidməti ondan ibarətdir ki, o, ilk dəfə olaraq «Tarix fəlsəfəsi» əsərində bütün təbii, tarixi və mənəvi aləmə proses halında, yəni daim hərəkət, dəyişmə, bir şəkildən başqa hala keçmə və inkişaf halında olan proses kimi baxmış, bu hərəkət və inkişafın daxili əlaqəsini aşkara çıxarmağa çalışmışdır. Hegelin gücü və onun fəlsəfi baxışlarını xarakterizə edən səmərəli tərəf canlı başlanğıc kimi onun idealist sisteminin kölgəsində döyünür, hər şeydən əvvəl onun gerçəkliyə tarixi yanaşmasında, inkişaf prinsipini ən geniş surətdə nəzəri olaraq tətbiq etməyə cəhd etməsində, onu ictimai həyatın ən ümumi qanuna tabe etdirməsindədir. Hegelin təfəkkür tərzinin digər filosofların təfəkkür tərzindən üstünlüyü onun əsasında yerləşən tarixi duyma qabiliyyətində idi. Hegel ilk dəfə olaraq tarixin inkişafı və daxili əlaqəsini göstərməyə cəhd edirdi, tarix fəlsəfəsində onun baxışlarının möhtəşəmliyi müasir dövrdə də təəccüblənməyə layiqdir. Xüsusilə ondan sonra sələfləri tarix fəlsəfəsi haqqında ümumi düşüncələrə baş vurmuşdular.

İnkişaf prinsipi abstrakt və ya idealist formada Hegel tərəfindən tətbiq olunmasından asılı olmayaraq onun bütün nəzəri təfəkküründən keçən həlledici halqa hesab olunur. Ancaq dialektik metod və zaman

üçün dahi alimlik nəticə etibarı ilə özünün ümumdünya tarixi anlamını verə bilərdi. Hegel əsaslı olaraq nəinki öz dövrü üçün, hətta sonrakı dövr alimləri nəslinə xas olan prinsipsizlik və eklektizmi məzəmmət edir. «Ancaq yüksəklikdən predmetləri yaxşı seyr etmək və hər şeyi görmək mümkündür, onlara aşağıdan yuxarıya kiçik yarıqdan baxmaqla bunu etmək olmaz».

Ümumdünya tarixinin Hegel tərəfindən başa düşülməsi dialektik metodun şüurlu surətdə həyata keçirilməsinə görə empirizmin, köməksiz şəkildə tarixin ayrı-ayrı faktları və hadisələri arxasında sürünməsi, hadisələrin tarixi zəncirinin qanunauyğun və əlaqələri açmağı mütləq mənada bacarmamasına görə onun üzərində yüksəlir.

Hegelə görə ümumdünya tarixi xoşbəxtlik meydanı deyildir: «Xoşbəxtlik dövrləri onda boş vərəqlər hesab olunur, ona görə ki, onlar əksliklərin olmadığı harmoniya dövrləri hesab olunurlar» (1, səh. 26).

Prinsipcə tarixi prosesə tətbiq edildikdə əksliklər, ziddiyyətlər gerçəkliyin mühüm tərəfini ifadə edirlər. Hegel üçün cəfəngiyat o hesab olunur ki, adamların ümumdünya fəaliyyətini, onların mübarizəsini şəxsi məziyyətlərini cansıxıcı fəaliyyət ilə, sadəliklə, insansevərlik və xeyirxahlıqla əvəz edirlər (1, səh. 26).

Hegel bir sıra fikirlərində şüurlu surətdə tarixi prosesin anlamında fəaliyyətdən kənarda adamların maraq və iradəsinin başa düşülməsi təhlükəsindən qaçmağa cəhd edir.

Tarixdə daxili əlaqə, zərurət və qanunauyğunluq bu və ya başqa şəkildə özünə yol açır, bu proses xüsusi olaraq adamların fəaliyyətində, onların mübarizəsində, maraqlarında, əməllərində, cəhdlərində onların həyata keçməsində özünün konkret formasını tapır. Tarixi qanunauyğunluğun, hadisə və şəraitlərin konkret axını dialektikası çox mürəkkəbdir, mürəkkəbdir ona görə ki, insanların mübarizəsi və maraqları, fəaliyyəti mürəkkəbdir.

Hegel bunu dərk edərək yazırdı: «Ümumdünya tarixində insanların fəaliyyəti sayəsində, həm də onların can atdığı və əldə etməyə çalışdıqları nəticələrdən bir qədər başqa nəticələr alınır, yəni onların bilavasitə bildikləri və arzu etdikləri nəticələrdən fərqli nəticələr alınır» (1, səh. 27). Bu dərin və mahiyyətcə düzgün fikir indiyə qədər tarixdə mövcud olmuş bütün epoxalara, o cümlədən kortəbii qanunların fəaliyyət göstərdiyi kapitalizmə də aid edilir.

Hegelin tarix fəlsəfəsində insan zəkasının rəhbər rolu haqqında fikirləri insandan yüksəkdə duran zəka ilə əvəz olundu. Zəkanın bu cür mistikləşdirilməsi pərdəsi arxasında Hegel fəlsəfi fikrin inkişafı üçün yeni və son dərəcə mühüm bir məsələ irəli sürdü. Burada söhbət tarixi prosesin obyektiv əsaslandırılmasından gedir. Tarixi prosesin təbiətdə olduğu kimi elmi tədqiqi öz qarşısına məqsəd qoyan insanın iradə və şüurundan asılı olmayaraq obyektiv qanunların aşkar edilməsi zamanı başlayır. Fəlsəfə tarixində belə bir vəzifəni tam həcmdə alman idealist fəlsəfəsinin klassikləri irəli sürmüşdülər. Hegel tarixi prosesin obyektiv əsaslandırılması problemini dəqiq şəkildə qoymuşdu:

«Beləliklə biz təsdiq edirik ki, ümumiyyətlə heç nə öz fəaliyyətləri ilə iştirak edənlərin maraqlarından kənarda həyata keçirilmir, belə ki, biz maraqları ehtiras adlandırırıq. Fərdlilik bütün maraqları və məqsədi arxa plana keçirərək bütövlükdə predmetə verilir, bu məqsəddə özünün bütün gücü və tələbatı ilə toplanır. Biz ümumilikdə deməliyik ki,

dünyada böyüк işlər ehtirassız baş verməmişdir» (1, səh. 23).

Tarix fəlsəfəsinin predmeti haqqında bəhs edərкən Hegel göstərir кi, ona iкi moment daxil olur; birincisi ideya, iкincisi insani ehtiraslardır. Birinci moment onun əsasını təşкil edir, iкincisi isə ümumdünya tarixinin bizim qarşımızda açılmış böyüк xalçasının ilmələridir. Daha sonra belə bir fiкir irəli sürülür кi, insanı onun ehtirasları və maraqları, enerjisi və müəyyən xaraкterdən кənarda nəzərdən кeçirməк olmaz. Materialist filosofların fiкrincə Hegel tarixi qanunauyğunluğu mistiкləşdirərəк onu mütləq ideyanın özinкişafı ilə bağlayırdı. Problem həll olunmamışdı, onun idealist interpretasiyasının zəifliyini aradan qaldırmaqla daha da irəli getməк olardı. Bir istiqamətdə prinsipial addım K.Marкs tərəfindən atılmışdı. K.Marкs Hegelin tarixi prosesin obyeкtiv əsaslandırılmasında axtarışlarını qəbul edirdi. Onun inкişafı tarixi zərurətin mistiкləşdirilməsini aradan necə qaldırmaqdan asılı idi. K.Marкs tarixi prosesin obyeкtiv əsaslandırılması ilə bağlı Hegelin fiкirlərini onu «idealizmdən» azad etməкlə qəbul etmişdi. Bu təbii кi, başqa bir mövzunun, tədqiqatın obyeкtidir...

Hegelin tarix fəlsəfəsində mühüm məqamlardan biri də tarixdə şəxsiyyətin yeri və rolu məsələsidir. Tarixdə şəxsiyyətin rolunu şişirdən baxışlara çox rast gəlməк olar. Bu fiкrin tərəfdarları görкəmli şəxsiyyətlərin tarixi prosesin gedişini müəyyən etmələrini bildirirdilər. Tarixi şəxsiyyətlər müəyyən şəraitin təsiri altında və özlərinin şəxsi кeyfiyyətləri ilə tarix səhnəsinə çıxırlar. Hegelə görə tarixi şəxsiyyətlər o insanlardır кi, böyüк bəsirətlə tarixi prosesin perspeкtivlərini anlayırlar. Belə insanlar tarixi, ümumdünya-tarixi şəxsiyyətlər hesab olunurlar, onların məqsədlərində ən ümumi məzmun mövcuddur. Belə şəxslər öz məqsədlərini güdərəк ideyaları ümumiyyətlə, başa düşmürlər, amma onlar praкtiкi və siyasi xadimlərdir. Eyni zamanda onlar düşünən insanlar idilər və vaxtında nəyin lazım olduğunu dərк edirdilər, yaxın zamanda onlar dünyanın inкişafı üçün zəruri olanı bilməк, onu özünün məqsədi etməк və onun həyata кeçməsi üçün öz enerjisini qoymaq bu şəxsiyyətlərin işi idi. Buna görə də hansı bir epoxanın qəhrəmanlarını bəsirətli insanlar кimi qəbul etməк lazımdır, onların fəaliyyəti, onların çıxışı bu anda ən yaxşı hesab olunur. Böyüк insanlar başqalarına yox, özlərinə rahatlıq arzulayırdılar.

Hegel yazırdı кi, ümumdünya tarixi şəxsiyyətlərə bu və ya digər arzuda ifadə olunan ayıqlıq xas deyildir. Onlar çox şeyi hesaba almırdılar, tamamilə özlərini bir məqsədə həsr edirdilər. Hətta belə şəxsiyyətlərin digər böyüк, müqəddəs maraqlara yüngül münasibət bəsləmələrinə rast gəlməк olur və bu cür davranış əxlaqi cəhətdən pislənməlidir. Belə bir böyüк şəxsiyyət zərərsiz gül-çiçəyini tapdalamağa, öz yolunda çox şeyi məhv etməyə məcburdur (səh. 29-30). Qeyd edəк кi, Hegel «Tarix fəlsəfəsi» əsərində tarixi şəxsiyyətlərin fəaliyyətindən bəhs edərкən Yuli Sezardan, Maкedoniyalı İsgəndərdən və başqalarından nümunə gətirərəк tarixi şəxsiyyətlərin tarixdə oynadığı müsbət və mənfi roldan bəhs edir. Qeyd etməк yerinə düşərdi кi, Azərbaycan tarixində də XX əsrdə belə tarixi şəxsiyyətlər olmuşdur. Tarixi şərait bu şəxslərin fəaliyyəti üçün, onların tarixdə rolunun nədən ibarət olduğunu bizə çatdırır və Hegelin tarixi şəxsiyyət haqqında fiкirlərinin nə qədər məzmunlu və orijinal, aкtual olduğunu əyani sübut

edir. (XX əsrdə Azərbaycan tarixində şəxsiyyətin rolunun nədən ibarət olduğunu M.Ə.Rəsulzadə və H.Ə.Əliyevin fəaliyyətində anlamaq olar)

Əlbəttə, tarixdə tarixi şəxsiyyətin xüsusi yeri vardır. Buna görə də onun tarixdə oynadığı rol böyükdür. Tarixi şəxsiyyətlər müəyyən şəraitin təsiri altında və özünün şəxsi keyfiyyətləri hesabına tarix səhnəsinə çıxa bilirlər. Bu şəxsiyyətlər öz fəaliyyətlərində «dünya ruhunu» ifadə edirlər. Onların qarşıya qoyduqları məqsəd çox vaxt xalqa səfərbəredici təsir göstərmişdir. Onlar nəyin mühüm olduğunu, nə zaman yerinə yetirilməli olduğunu başqalarından tez dərk edirlər və xalq kütlələrini öz arxalarınca aparmağı bacarırlar. Tarixi şəxsiyyətlər tarixi zərurəti başa düşürlər, lakin onlar özlərinin sahibi deyildilər. Onlar «dünya ruhu»nun alətləridir. «Dünya ruhu» onların köməyilə öz məqsədlərinə çatandan sonra daha bu tarixi şəxsiyyətlərə ehtiyacı qalmır, onlar boş buğa qabığı kimi gərəksiz olurlar. Tarixi şəxsiyyətlərin həyatını xoşbəxt hesab etmək olmaz, belə bir xoşbəxtlik onların ancaq şəxsi həyatında mümkündür.

Tarixdə insan yeri və rolunun anlanmasında Hegeldə ikilik aşkarlanmışdır. Bir tərəfdən insan ictimai-siyasi hadisələrin sərbəst və ya məcburi iştirakçısı kimi mövcud əmək bölgüsü və tələbatlar sistemi hesabına özünün fərdi fəaliyyəti ilə sosial tama daxil olur. Digər tərəfdən fərdi fəaliyyətin əhəmiyyəti tarixi qanunauyğunluğun mexanizmi ilə təmin olunur. Tarixin traktovkasında Hegeldə determinizm tendensiyası həqiqətən vardır, dövlətin rolu isə yüksək dərəcədə şişirdilmişdir. Amma tarix səhnəsində fəal insanın rolu aradan qalxır və ya yox – bu məsələyə Hegelin münasibəti birmənalı deyildir. Digər tərəfdən qanunauyğunluq və insan fəaliyyətinin nisbəti məsələsini təhlil edərkən Hegel ilk dəfə olaraq tarixi determinizmin spesifikası məsələsini irəli sürmüşdür. Bununla əlaqədar olaraq ümumdünya-tarixi şəxsiyyətlərin rolunun anlamı xüsusi maraq doğurur. Aydın olmuşdur ki, tarixdə insanların fəaliyyəti, adətən onların cəhd etdiklərinə yox, başqa nəticələrə gətirib çıxarır. Tarixi zərurət baxımından bu fəaliyyət əhəmiyyətinə görə cüzi və təsadüfidir. Amma Hegel hesab edir ki, bəzən konkret hərəkət və davranış heç də təsadüfi və az əhəmiyyətli nəzərə çarpmır. Əksinə, onlarda ən ümumilik momenti ifadə olunmasına görə çox mühüm hesab olunurlar. Belə hadisəni Hegel böyük tarixi münasibətlər kimi dəyərləndirmişdir. Onlar ehtiraslar vasitəsi ilə ifadə olunur və həyata keçirilirlər, amma ehtiraslar və xüsusi məqsədlər ilə başa çatmır. Onların xüsusiyyəti tarixi yeniləşmə ilə bağlı olmasındadır. Hegel cəmiyyətin tarixdə böhranlı dövrlərinin xüsusi mənasını qeyd etmiş və onların məzmunlu xarakteristikasını vermişdir. Burada böyük toqquşmalar meydana gəlir. Söhbətin sosial böhran dövrlərindən getməsini başa düşmək çətin deyil, mövcud dəyər və normalar qüvvədən düşür, yaxın vaxtlara qədər qəti və sarsılmaz sosial qaydaların əsası ayaq altına atılır, yeni ictimai formaların yaranması köhnələn üçün dağıdıcı olur. İş ondadır ki, yeni yaranan qiymətli, ağıllı və sadəcə zəruri hesab olunur. Tarixi hərəkət özünün məqsədini güdən adamlar tərəfindən həyata keçirilir və şəxsi məqsədlər arasında yeni ən ümumi məzmun yerləşir. Belə adamların – maraqları və fəaliyyəti inkişafın tələbatı ilə üst-üstə düşür və meydana gəlmiş tarixi imkanlar həyata keçirilir (2, səh. 141).

Hegel ümumdünya tarixi şəxsiyyətlərdən, onların rolundan bəhs

edərkən şəxsi keyfiyyətlərin mütləqləşdirilməsi ənənəsindən qəti şəkildə uzaqlaşmışdır. Hər bir fərd kimi tarixi şəxsiyyət də eqoist məqsədlər güdür. Sezar özünün şərəfi və təhlükəsizliyi uğrunda mübarizə aparmışdır ki, bu da onun rəqibləri üzərində hərbi-siyasi qələbəsi hesabına təmin oluna bilərdi. Bu məqsədin həyata keçirilməsi qeyri-adi şəxsi keyfiyyətləri tələb edirdi və Sezarın böyük şəxsiyyəti onun fəaliyyət obyektinin nəticələrini yaradırdı. Tarixi şəxsiyyətlər standart fəaliyyət göstərmirlər, prosesin gedişində başqaları üçün gizli olanı sezə bilirlər.

Hegelin «Tarix fəlsəfəsi»ndə və başqa əsərlərində insanın şəxsiyyəti, o cümlədən böyük şəxsiyyətin məxsus olduğu sosial birliyin bazası əsasında formalaşır. «Xalq ruhu» fərdin substansional əsasını təşkil edir. Hər bir insan dünyaya öz xalqının əhatəsində gəlir və onun ruhuna məxsusdur. Beləliklə, tarixi şəxsiyyət taleyin hədiyyəsi deyil, konkret cəmiyyətin tarixi inkişafının məhsuludur. Onların xarakterik cizgiləri tarixi zərurət baxımından təsadüfidir, onları formalaşdıran sosial-mədəni mühit kontekstində isə təsadüfi deyildir.

G.V.Hegelin «Tarix fəlsəfəsi»ndə nəzərdən keçirilən məsələlərdən biri də ümumdünya tarixi prosesinin mahiyyətinin açılması və cəmiyyət tarixinin dövrləşdirilməsi problemidir.

Hegel «Tarix fəlsəfəsi»ndə ümumdünya tarixini nəzərdən keçirərkən ilk növbədə «Ümumdünya tarixinin coğrafi əsası» adlı bölməsində konkret təhlil və bundan sonra «Tarixin bölgüsü»nü aparır. Bu materiallarda dünya ruhunun hərəkətinin coğrafi koordinatlarının və mərhələlərinin izahı verilir. Bir sıra ümumi qeydlərdən sonra Hegel Yeni və Köhnə dünyanın qısa təbii-tarixi xarakteristikasını aparmışdır. Hegel tərəfindən prinsipial şəkildə qəbul edilməyən «coğrafi determinizmin» arqumentləri paradoksal hal olsa da dünya ruhunun hərəkətinin tarixi koordinatlarını əsaslandırmaq üçün kifayət qədər fəal istifadə olunmuşdur. Hegel yazır ki, təbii şəraitin əhəmiyyətini nə azaltmaq, nə də artırmaq lazımdır. «İoniyanın yüngül havası, əlbəttə Homerin poemalarının gözəlliyinə çox kömək etmişdir, amma heç bir iqlim Homerlərin doğulmasına kömək edə bilməz və həmişə onları yarada bilməz» (1, səh. 76). Hegelin bu fikrində mədəni inkişafda sosial-siyasi şəraitin əhəmiyyətinə toxunan sağlam düşüncə var. Amma bu fikir coğrafi amillərin özbaşına təhlili və tarixi prosesin ruhun hərəkətinin izahı ilə əlaqədar kölgələ qalır. Təbii mühit ruhun inkişafının xarici şərtidir, amma Hegel hesab edir ki, onun təsiri bir sıra hallarda çox mühümdür. Öz fikrini inkişaf etdirərək Hegel izah edir ki, niyə ancaq Avropa ruhun azad olması üçün daha münasib region olmuşdur. «İsti və soyuq qurşaqlarda insan üçün sərbəst hərəkət etmək mümkün deyildir, burada isti və soyuq ruha öz özü üçün dünya yaratmağa imkan verən çox nəhəng qüvvə hesab olunur. Buna görə ümumdünya tarixi üçün əsl arena mülayim qurşaq hesab olunur, xüsusilə də onun şimal hissəsi» (1, səh. 77). Bu mühakimə görünür Hegelin özü üçün də çox inandırıcı deyil, buna görə də Amerika və Avstraliyanın tarixi geriliyini izah etmək zərurəti ilə qarşılaşır (Burada sosial-mədəni fəaliyyət üçün əlverişli, geniş ərazilər mövcuddur).

Təkcə təbii-coğrafi amillər öz-özlüyündə işə yaramır və göstərilən kontinentlərin coğrafi cavanlığı və geridə qalması nəyisə izah edə bilmir və buna görə Hegel etno-antropoloji qaydalara müraciət etməli olur,

çünki onlardan izahat yerinə istifadə etmək olar. Yerli amerikalıların təbii cizgiləri Hegelə görə həlimlik, süstlük və köləcəsinə itaətkarlıqdır ki, bunlar da ruhun yüksək formalarına çatmağa mane olmuşdur. Hətta, Meksika və Perunun ərazisində nisbətən inkişaf etmiş Amerika mədəniyyəti Hegelə görə Avropa sivilizasiyası ilə rəqabətdə kifayət qədər «natural» olduğu üçün davam gətirə bilməmişdir.

Yeni dünyanın müstəmləkə halına salınmasının xarakteri və nəticələri, o cümlədən Kolumba qədərki Amerikanın sivilizasiyaya çox gərəkli ocaqların faciəli taleyi haqqında Hegelin mövqeyində riyakarlıq və ya məlumatsızlığın daha çox olmasını söyləmək çətindir. Qeyd etdiyimiz halda görünür Amerikanın müstəmləkəyə çevrildiyi zaman aşağıların yuxarılar tərəfindən necə dəf olunmasının metod və tarixi detallarını nəzərdən keçirməkdən daha çox ona özünün fəlsəfi tarixi prinsiplərini əsaslandırmaq daha vacib olmuşdur. Xüsusilə, Hegelin Afrika və afrikalılar haqqında xarakteristikası qaba və rüsvayçı hesab olunmalıdır. Nəzərdən keçirdiyimiz bölmədəki onun fikirləri qiymətləndirmək üçün heç də asan başa gəlmir. Bu bölməni təhlil edərkən Hegelin mənəvi siması heç də ürəkaçan deyildir. Amma Hegeli rasizmin müjdəverəni və ya müstəmləkəçiliyin ideoloqu kimi təqdim etmək kobud səhv olardı. Hegel elmilik prinsipinə sadiq və tərəqqi ideyasına səmimi şəkildə sədaqətli böyük mütəfəkkir, filosof idi. Bu baxımdan onun fəlsəfəsindəki ziddiyyətləri və nöqsanları təhlil edərkən diqqətli olmağı, konkret yanaşma və obyektiv qiymətləndirmə tələb edir. (Onun Şərq dünyasına münasibəti də ziddiyyətli və subyektivdir).

Hər bir tarixi epoxanın sosial-mədəni həyatının bütövlüyü və keyfiyyətdə özünəməxsusluğunun dərk olunması Hegelin xidməti hesab olunmalıdır. Bir çox xalqlara tarixi liderlik imkanı verməkdən imtina edərkən Hegel fikirləşmirdi ki, onlar üçün inkişafa yol bağlıdır, onun fikrincə bu xalqlar sadəcə olaraq başqa xalqlar tərəfindən keçilmiş mərhələləri təkrarlayacaqlar. Gələcəyin ölkəsi kimi Hegel Şimali Amerikanı köhnə dünyanın ruhunun daşıyıcısı və davamçısı keyfiyyətində təsəvvür edirdi. Hegelin ABŞ haqqında mülahizələri burjuaziya dünyasının ən cavan və qabaqcıl ölkəsi kimi, həm də çox uğurlu tarixi proqnoz kimi, Şimali Amerikanın bütövlükdə konsepsiyasının mühüm detalları kimi çox qiymətlidir. Şimali Amerikanın müvəffəqiyyətlərini Hegel gerçək səbəblər ilə əlaqələndirirdi. Bunlar Hegelə görə sənayenin inkişafı, məskunlaşmanın yüksəlməsi və mülki intizam və sarsılmaz azadlıqdır. Hegelin ABŞ haqqında XIX əsrin əvvəllərində dahiyanə sezmələri XXI əsrin əvvəllərində özünün tam təsdiqini tapır və dahi filosofun uzaqgörənliyi, cəmiyyətin təhlili ilə bağlı fikirlərinin nə qədər elmi olduğunu təsdiq edir.

Monqol və Qafqaz irqlərinin Hegel tərəfindən anlamının çox özünəməxsusluğu vardır. Monqol irqi özünə tibetliləri, hətta hindliləri daxil edir. Qafqaz irqini isə xristian – avropalılara və müsəlmanlara bölür və Ön Asiyanın sakinlərini, ərəb xalqlarını ona daxil edir.

Hegelin «Tarix fəlsəfəsin»ndə maraq doğuran bölmələrdən biri də «Tarixin bölgüsü»dür. Bütövlükdə tarixi prosesin dövrləşdirilməsi problemi üzrə Hegelə qədərki dövrdə və ondan sonrakı dövrlərdə filosoflar tərəfindən müxtəlif nəzəriyyələr və baxışlar formalaşmışdır. Burada F.Fukuyamanın, K.Marksın, İ.Viko, O.Şpenqler və A.Toynbinin, İ.Herderin, K.Yaspersin, L.Bolinqbrokun tarixin dövrləşdirilməsi ilə bağlı baxışlarını qeyd edə bilərik.

Biz əvvəlki yazılarımızda tarixi prosesin dövrləşdirilməsi ilə bağlı L.Bolinqbrokun, İ.Herderin, K.Yaspersin fikirlərini təhlil etmişik. Tarixi prosesin bölgüsü O.Şpenqler və A.Toynbini tərəfindən daha ətraflı və fəlsəfi cəhətdən məzmunlu şəkildə təhlil edilmişdir.

Bu nəzəriyyələr içərisində XX əsrin məşhur filosoflarından K.Yaspersin tarixi prosesin təhlili ilə bağlı baxışları çox böyük maraq doğurur. K.Yaspers «Tarixin mənası və məqsədi» adlı əsərində müasir bəşəriyyətin taleyi haqqında fikirlərini bölüşür, dünyada və Avropada elmin, sivilizasiyanın problemlərini müzakirə edir. Bizim üçün maraqlı olan K.Yaspersin tarixi prosesin dövrləşməsi ilə bağlı mövqeyidir. K.Yaspersin tarixi prosesinin bölgüsündə Hegel fərqli olaraq bütün bəşər tarixini üç ardıcıl bir-birini əvəz edən mərhələlərə bölür. Bu mərhələlər «tarixəqədər», «tarix» və «dünya tarixi» adlanır. K.Yaspersə görə «Tarixəqədərki» uzun mərhələ insanın formalaşmasından – dilin və irqlərin meydana gəlməsindən tarixi mədəniyyətlərin başlanmasına qədərki dövrü əhatə edir. «Tarix» mərhələsi təxminən beş minillik keçmişdə Çində, Hindistanda, Yaxın Şərqdə və Avropada baş verən hadisələri əhatə edir. Avropa ilə Çin və Hindistanı müqayisə etmək olar, amma bütövlükdə coğrafi anlayış kimi onunla müqayisə etmək olmaz. Asiyanı K.Yaspersə görə burada əvvəlcə keçmişin böyük mədəniyyətləri – Şumer, Leisir, Egey, Ariyaqədərki Hindistan mədəniyyəti, Xuanxe mədəniyyəti formalaşır. Sonrakı dövrdə işğallar nəticəsində yeni mədəniyyətlər çıxmışlar. K.Yaspers yazır ki, bizim zəmanəmizdə meydana gələn və dünyanın qlobal vəhdəti ilə faktiki olaraq yer kürəsinin universal tarixi dünya tarixi başlayır. Hegelin «Tarix fəlsəfəsin»də tarixi prosesin dövrləşdirilməsi dörd dövr üzrə aparılmışdır. Hegelə görə bu dövrlər – Şərq dünyası, Yunan dünyası, Roma və Alman dünyasıdır. Hegel bu şəkildə tarixi prosesin dövrləşdirilməsini apararkən meyar kimi azadlığı götürmüşdür. Başqa bir alman alimi İ.Q.Herder «Bəşər tarixi fəlsəfəsinə dair» adlı əsərində cəmiyyətdə həmişə tərəqqinin olmasına sadəlövhcəsinə inanmamağa çağırır və ictimai inkişafda müəyyən ziddiyyətlərin olmasını oxucuların anlamasına cəhd edirdi. Herderin fikrincə, insan nəsli Asiyada meydana gəlmişdir. Burada ən qədim dilləri və yazılı abidələri tapmaq olar. Xüsusi olaraq qeyd etmək istəyirik ki, Herder mədəniyyət tarixində avroposentrizmdən bir mənalı olaraq imtina etmişdir. Herder qeyd etdiyimiz əsərində Asiya xalqlarına xüsusi hörmət hissi ilə yanaşır. Hegeldə isə bu cür münasibətə rast gəlmirik. Bizə elə gəlir ki, bu cür münasibət Hegelin həm avroposentrizm mövqeyindən çıxış etməsi ilə, həm də onun ictimai inkişafı təhlil edərkən rəhbər tutduğu azadlıq meyarı ilə bağlı idi. İnanmaq çətindir ki, böyük filosof Şərq xalqlarına münasibətdə ayrı-seçkilik yolu tutsun. Herder ümumi humanist baxışlardan, xalqların bərabərhüquqlu olması inamından və müstəmləkə əsarətinə mənfi münasibətindən çıxış edərək Asiya xalqlarına hörmətlə yanaşırdı (bax 7, səh. 91-92). Hegelin tarix fəlsəfəsində bir çox xalqlara liderlik statusu verilməsindən imtina edilir, o fikirləşmirdi ki, onlar üçün inkişaf yolu bağlıdır, onun fikrincə bu xalqlar sadəcə onlara başqa xalqlar tərəfindən keçirilmiş inkişaf mərhələlərini təkrarlayacaqlar. K.Yaspers isə öz əsərində xalqların tarixində oynadıqları rolu belə təqdim etmişdir:

1. ***«Ox xalqları»***. Bu xalqlar ardıcıl olaraq öz tarixlərini davam etdirərək, sıçrayış edərək sanki ikinci dəfə doğulurdular, bununla da

insan və onun tarixinin əsasını qoymuşlar.

2. ***Yüksəlişi keçməyi bacarmayan xalqlar.***

3. ***Son dövrün xalqları.*** K.Yaspersə görə bütün xalqlar iki yerə – dünyanın yaradılmasında əsas rol oynayanlara və bu prosesdən kənarda qalan xalqlara bölünürlər. Birincilər – tarixi xalqlar, ikincisi – ibtidai xalqlardır. Bu təhlildən görünür ki, K.Yaspersin fikirləri xeyli dərəcədə Hegelin mövqeyinə yaxındır. Burada bir məsələyə də münasibət, aydınlıq gətirmək istəyirik. Məlumdur ki, Hegel gələcəyin dövləti kimi ABŞ-nı qeyd etmişdir. K.Yaspers bununla bağlı yazır ki, XIX əsrin sonunda elə görünürdü ki, Avropa dünya içərisində hökmranlıq edir, dünyada Avropa texnikasını və Avropanın milli tələblərini qəbul edib avropalaşdı və onların hər ikisini uğurla Avropanın özünə qarşı yönəltdi. Avropa artıq dünyada hökmranlıq edən amil deyildir, Avropa Amerika və Rusiya qarşısında artıq geri çəkilmişdir, onların siyasətindən Avropanın özünün taleyi asılıdır. Göründüyü kimi, hər iki filosof ABŞ-ın gələcək inkişafı ilə bağlı tarixi proqnozda tam haqlı olmuşlar.

Hegelin tarix fəlsəfəsində ümumdünya tarixi prosesin gedişi və istiqaməti dəqiq müəyyən edilmişdir.

Coğrafi xülasədə bu ümumi cizgilərlə göstərilmişdir. Günəş Şərqdə doğur və Qərbdə özünün dərkini tapır və daha yüksək parlaqlıqla yayılır. Bu prosesin daxili məzmunu onun intizamlı təbii iradəsi və ən ümumiyə və subyektiv azadlığa qədər yüksəlməsi təşkil edir. Azadlığın inkişaf mərhələlərinə uyğun olaraq Hegel tarixi prosesin dövrləşdirilməsini müəyyən edir. Hegelə görə ümumdünya tarixi Şərqdən Qərbə doğru istiqamət alır, belə ki, Avropa sözsüz ümumdünya tarixinin sonu, Asiya isə onun başlanğıcı hesab olunur. Şərq dünyasına görə bəziləri azaddır, alman dünyası isə hamının azad olmasını qəbul edir. Buna uyğun olaraq dövlətçilik formaları da fərqləndirilir ki, bu da cəmiyyətin yetkinliyi ilə bağlıdır.

«Bizansdan keçən yol yunan və romalılar vasitəsilə şimala gedir, onlar belə qənaətə gəldilər ki, tarixi proses Şərqdən Qərbə doğru gedir və proqnozlaşdırırdılar ki, bu yol sonrakı mərhələdə Amerikaya keçməlidir (K.Yaspers «Tarixin mənası və təyinatı») bax 6, səh. 42». Hegelə görə Şərq dünyası milli miqyasda hər şeydən əvvəl patriarxat sistemidir, hökmdar, despot tərəfindən idarə olunur. Bu zaman hökmdar ya kahin, yaxud da Allah rolunda çıxış edir. Buna görə Şərqin siyasi siması teokratiyadır, çinlilər və monqollarda bu teokratik aristokratiya, İranda isə teorkratik monarxiyadır. Burada dini, əxlaqi göstəricilər, həm də adətlər, dövlət, dövlət və hüququn qanunları rolunu oynayırdı. Şəxsiyyət hələ cəmiyyətdən ayrılıb seçilmir. Şəxsiyyətin fərdi keyfiyyətləri lazımi səviyyədə inkişaf etmədiyindən insan cəmiyyətdən ayrılmır, ona görə də cəmiyyətin sonrakı inkişafı üçün imkanları az olur. Hegelə görə belə cəmiyyətdə insan potensial olaraq yalnız daxili azadlığa malik olur, bu azadlıq onun həyatına və cəmiyyətdəki fəaliyyətinə çıxış əldə edə bilmir. Hegel ruhun inkişaf mərhələlərini insanın yaş dövrlərinin inkişafı ilə müqayisə edir. Onun fikrincə, Şərq dünyası tarixin, bəşəriyyətin uşaqlıq, çağalıq dövrüdür. Burada fərd subyektiv azadlığı dərk etməmişdir.

Hegelin tarix fəlsəfəsində növbəti mərhələ Yunan dünyasıdır. Yunan dünyası cəmiyyət və fərdin vəhdətinə özünü göstərən mənəvi

gerçəkliyə malikdir. Burada şəxsi fərdliyin başlanğıcı insanın özü ilə deyil, özünün ideal vəhdətində yaranır. Yunan dünyasında azadlıq onunla ifadə olunur ki, vətəndaşlıq qanunları özünü onlarda olan kimi, onları isə özü kimi dərk edir. Qullarla yanaşı, burada demokratiya da mövcuddur. İ.Herder yuxarıda qeyd etdiyimiz əsərində «antik sivilizasiyanın gələcək tədqiqatçıları üçün» Yunanıstan tarixinin əsas mərhələlərini müəyyənləşdirir. Başlanğıc dövr-qəbilə mədəniyyətinin yaranması, sonra isə tədricən ilk tayfa monarxiyalarının aristokratik və demokratik şəhər respublikalarına verilməsi hesab olunur (7, səh. 96).

Yunan dünyasında şübhəsiz ki, azadlıqdan hamı deyil, ancaq seçilmişlər – dahilər və xoşbəxtlər istifadə edirlər. Qeyd etmək lazımdır ki, yunan dünyası insandan müstəqil və azad şəxsiyyət hazırlamamışdır ki, onlar müstəqil şəkildə öz iradələrini nümayiş etdirə bilsinlər. Yunan ruhu azadlıq üçün doğulur, təbiətlə vidalaşaraq gözəl fərdliklə təcəssüm olunur.

Ruhun özünüdərinləşdirməsi burada ancaq bədii şüur mərhələsində və yaxud mütləq ruhun birinci mərhələsində əldə olunur. Buna görə Hegel fərdilik və gözəlliyi yunan ruhunun azadlığa doğru hərəkətinin son həddi kimi nəzərdən keçirir, bu məqsədin əldə olunması ilə o özünün tarixi vəzifəsini yerinə yetirmiş olur. Hegel Yunan dünyasını bəşəriyyətin yaş dövrünün yeniyetməlik dövrü adlandırmışdır, belə ki, onda fərdlik formalaşmağa başlayır. Bu ümumdünya tarixinin ikinci prinsipi hesab olunur.

Hegelin tarix fəlsəfəsində ümumdünya tarixinin növbəti mərhələsi Roma dünyasıdır. Hegel yazır ki, Höte ilə söhbətdə Napoleon belə bir fikir söyləmişdir ki, yeni faciə əvvəlkilərdən onunla fərqlənir ki, onun üçün artıq tale yoxdur və qədim dövrün taleyi rolunu hazırkı dövrdə siyasət oynayır. Beləliklə, siyasət faciədə yeni taleh kimi istifadə olunmalıdır, şəraitin aradan qaldırıla bilməyən gücü kimi fərdliyin məcburi fəth edilməsidir. Belə güc kimi Roma dünyası hesab olunur, onun missiyası mənəvi fərdlərə buxov qoymaq, bütün Alllahları və bütün ruhları dünya xanədanlığının panteonuna toplamaq və ondan nəsə abstrakt – ən ümumi yaratmaqdır. Beləliklə, dünya arenasında taleyin əvvəlki funksiyalarını qəbul etmiş yeni amillər yarandı – bu siyasətdir.

Şəxsiyyət üçün bu faciə dövrüdür. Roma dünyası bəşəriyyətin yaşa dolmasının yetkinlik dövrüdür. Roma tarixinin çar, respublika və imperator ənənəvi olaraq dövrlərinə bölünməsi Hegelə görə formal və səthi hesab olunmalıdır. Hegel təbiətin özünəməxsus başa düşülməsinə və Roma ruhunun təyinatına uyğun olaraq başqa dövrləşdirməni irəli sürdü və burada mühüm mərhələ ikinci Pun müharibəsi olmuşdur, bu zaman Romada ciddi siyasi dəyişikliklər baş verməmişdir. Bu onunla izah olunur ki, Karfoqen üzərində həlledici qələbə Romanın dünya imperiyası kimi formalaşmasının başlanğıcı oldu. Roma tarixinin Hegelə görə üç dövrü bunlardır: Roma şəhərinin əsasının qoyulmasından vahid güclü dövlətin yaranmasına qədərki dövrü; Pun müharibəsi ilə dünya arenasına çıxılması və dünya hökmranlığının təsdiq edilməsi dövrü; nəhayət, imperiya dövrü. Tarix elmi üçün bir dövrləşdirmənin nə qədər yararlı olmasını demək çox çətindir, bunun üçün onun təfərrüatlarına varmaq və əsaslandırmaq lazımdır. Roma mərhələsi mənəvi həyatda iki ifrat ayrılmaya, fərdin şəxsi özünüdərki və seçilmiş aristokratların nümunəsində abstrakt ümumiliyə parçalanmasına görə tarix səhnəsini tərk etmişdir.

Ümumdünya tarixinin dördüncü momenti və ya sonuncu mərhələsi Hegelə görə Alman dünyası bəşəriyyətin qocalıq yaşıdır. Təbii qocalıq yaşı zəiflik hesab olunsa da, ruhun qocalıq yaşı tam yetkinlik dövrüdür. Bu dövrdə ilahi və insan təbiətinin birliyi formalaşır.

Burada obyektiv həqiqətlə azadlığın qovuşması, vətəndaş cəmiyyətinin intellektual ilahi varlıqla barışması baş verir. İnsanın ona xas olan daxili azadlığını elan edən xristianlıq elə hesab edirdi ki, bu azadlıq real olaraq həyata keçməlidir. Alman dünyası öz inkişafında üç mərhələ keçmişdir. Birinci mərhələ german xalqlarının Romanın təsir dairəsi daxilində meydana gəlməsindən Böyük Karlın imperiyasının yaranmasına qədərki dövrü əhatə edir. İkinci mərhələ feodalizm dövrüdür, bu zaman kilsə və dünyəvi hakimiyyətin qarşıdurması baş verir, üçüncü mərhələ Yeni dövrdür və bu dövr özündə Reformasiyanı və XVIII əsri birləşdirir. Bu dövrdə başlıca cəhət ümumi maraqların təminatçısı olan dövlətin yaranmasıdır. Hegelə görə Alman dünyasında bəşəriyyət tarixi öz inkişafının zirvəsinə çatır və bu inkişaf dövründə heç nə onun mövcudluğuna təhlükə yaratmır. Hegelin «Tarix fəlsəfəsi» əsərində tarixi prosesin fəlsəfi təhlililə bağlı dar çərçivədə apardığımız fikir mübadiləsi burada yekunlaşır. Tarixi proseslərin mexanizminin Hegel tərəfindən anlamı və bəşəriyyətin perspektivi idrakın inkişafının anlamında olduğu kimi mühafizəkar və inqilabi tərəflər arasındakı ziddiyyətlərdə ifadə və inikas olunur.

Hegelin bu sahədə çox böyük xidməti ondan ibarətdir ki, idealist dünyagörüşü çərçivəsində, özünün dialektik metoduna arxalanaraq ümumdünya – tarixi prosesinin vəhdətini, bununla da bəşəriyyətin tarixi taleyinin vəhdətini əsaslandırmışdır.

Hegelin «Tarix fəlsəfəsi» əsərində irəli sürülən fəlsəfi-tarixi ideyaların tarixi taleyi və onların həyata keçməsi qloballaşma dövründə, ictimai ziddiyyətlərin kəskinləşdiyi bir zamanda öz orijinallığını saxlayır, daha çox aktuallıq kəsb edir. Müasir dövrdə tarixi prosesi təhlil edərkən Hegelin fəlsəfi irsinə istinad edilməsi təbiidir.

## ƏDƏBİYYAT


1. Гегель Г. «Философия истории» Т. VIII, М., 1935.
2. Каримский А.М. «Философия истории» Гегелья. М., 1988.
3. Гердер И.Г. Идеи к философии истории человечества. М., 1977.
4. Ясперс К. Смысл и назначение истории. М., 1991.
5. Abbasova Q., Hacıyev Z. Sosial fəlsəfə. B., 2001.
6. Əlizadə B.X. K.Yaspers tarixi prosesin sxemi haqqında. B., BDU Elmi Xəbərləri, sosial-siyasi elmlər seriyası №3, 2002.
7. Əlizadə B.X. İ.Herder ictimai inkişafın qanunları problemi haqqında. B., BDU Elmi Xəbərləri, sosial-siyasi elmlər seriyası №2, 2003.


## Г.ГЕГЕЛЬ И ЕГО «ФИЛОСОФИЯ ИСТОРИИ»


Б.Х.АЛИЗАДЕ


## РЕЗЮМЕ


Статья посвящена одной из важнейших и актуальнейших проблем философского исследования – проблеме философского анализа исторического процесса.

Работа Г.Гегеля «Философия истории» посвящена анализу исторического процесса. Статья расскрывает историческую истину и ее сущность в воззрениях Г.Гегеля. Опираясь на философские воззрения Гегеля, анализируются отдельные этапы исторического процесса: Восточный, греческий, римский, германский.

**GEGELS «HISTORY OF PHILOSOPHY»**

**B.X.ALIZADEH**

**SUMMARY**

The article was dedicated to the main and actual problems of the philosophical research and the historical process of the philosophical analysis. Gegel's work «History of philosophy» dedicated to the analysis the of process, the role of personality in history and analysis of historical era.

The article is devoted to Hegel's historikal reality and the world outlook of the konkrete epoche.